**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Masallı rayonu Ərkivan qəsəbə sakini Nəzərov İldırım Kamil oğlunun 8 yanvar 2010-cu il tarixli 621 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Masallı rayonu Ərkivan qəsəbə sakini Nəzərov İldırım Kamil oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, 71 saylı Masallı kənd seçki dairəsi üzrə Ərkivan bələdiyyəsini əhatə edən 4, 5, 6 saylı seçki məntəqələrində vətəndaşların hüquqlarının pozulmasını bildirmiş və qanunla müəyyən edilmiş və həmin seçki məntəqələrində seçkilərin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası müraciətin tam, hərtərəfli və obyektiv araşdırılması üçün Seçki Məcəlləsinə uyğun olaraq araşdırmasını təmin etmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, Ərkivan bələdiyyəsinə seçkilər üzrə 5 və 6 saylı seçki məntəqələrindən səsvermənin nəticələrinə dair yekun protokolu maraqlı şəxslərə verilmiş, təsdiq edilmiş surətlərinin səsvermənin nəticələrinə dair MnSK-nın yekun protokolları ilə müqayisəli təhlili nəticəsində müəyyən edilən fərqlər seçicilərin iradəsini müəyyənləşdirməyə imkan vermədiyindən müraciətin qismən təmin edilməsi üçün əsaslar yaranmışdır. Təqdim edilən 4 saylı seçki məntəqəsinin protokolu isə seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq tərtib edilməməsi sübuta yetrilmədi.

Göstərilənlərə əsasən seçki dairəsi üzrə vətəndaş İldırım Nəzərovun müraciəti qismən təmin edilməli, 71 saylı Masallı kənd seçki dairəsi üzrə Ərkivan bələdiyyəsini əhatə edən 5 və 6 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin məntəqə seçki komissiyasının vəzifələrini müəyyən edən 37-ci maddəsinin 37.1.8-ci bəndinə əsasən məntəqə seçki komissiyası seçki məntəqəsində səsvermənin nəticələrini müəyyənləşdirir, səsləri hesablayır və səsvermənin nəticələri haqqında protokolları dairə seçki komissiyasına çatdırır. Həmin Məcəllənin 106.6-cı maddəsinə əsasən səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının yekun protokolları bu Məcəllənin 40.2-ci və 40.4-cü maddələrində göstərilən şəxslərin müşahidəsi ilə tərtib olunur.

71 saylı Masallı kənd seçki dairəsinin qeyd edilən seçki məntəqələrində Seçki Məcəlləsinin tələblərinə riayət olunmaması vətəndaşların seçki hüquqlarının pozulması ilə nəticələnmiş, ona görə də həmin seçki komissiyaları buraxılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 23.2-ci maddəsinin tələbinə görə aşağı seçki komissiyası tərəfindən vətəndaşların seçki və referendumda iştirak etmək hüquqları pozulduqda və belə bir hal nəticəsində Mərkəzi Seçki Komissiyası müvafiq ərazidə səsvermənin nəticələrini etibarsız hesab etdikdə, Mərkəzi Seçki Komissiyası həmin aşağı seçki komissiyasını buraxa bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 23.2-ci, 37-ci, 106.6-cı, 112-ci, 112-1-ci, 240-cı maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 71 saylı Masallı kənd seçki dairəsindən Ərkivan qəsəbə sakini Nəzərov İldırım Kamil oğlunun 8 yanvar 2010-cu il tarixli 621 saylı müraciəti qismən təmin edilsin.
2. Ərkivan bələdiyyəsini əhatə edən 5 və 6 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılaraq ləğv edilsin.
3. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 23.2-ci maddəsinə əsasən 71 saylı Masallı kənd seçki dairəsinin 5 və 6 saylı seçki məntəqələri buraxılsın.

4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Akif Qurbanov |
| | Almas Qəhramanlı |
| | Oktay Hümbətli |